*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 12-21* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.12*

***Heydər Əliyev–100***

# HEYDƏR ƏLİYEVİN ƏDƏBİYYAT TƏLİMİ VƏ MÜASİR DÖVR

**Tehran Əlişanoğlu**
AMEA-nın müxbir üzvü
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: tehran2006@yandex.ru

**Annotasiya.** Məqalədə Ulu öndər Heydər Əliyevin ədəbiyyata, sənətə münasibətinin əsasında duran prinsiplər, məxsusi diqqət yetirdiyi ədəbiyyat təliminin tələb və şərtləri şərh olunur. Heydər Əliyevin ədəbiyyata bağlılığının zəminində yalnız ölkə başçısı, rəhbər olmaq görəvi, missiyası deyil, həm də fitrətən böyük ədəbiyyat və sənət sevgisi dayanır. Ulu öndərin ədəbiyyat təlimi, bütövlükdə, əsasını hələ hakimiyyətinin birinci dövründə qoyduğu və gerçəkləşdirdiyi çağdaş Azərbaycançılıq konsepsiyasına söykənir. Hakimiyyətdə olduğu iki fərqli mərhələdə bu təlim fərqli statuslarda dövriyyəyə gəlsə də, mahiyyət etibarilə eynidir, eyni amala, milli tərəqqiyə xidmət edir. Bir zamanlar bizə yabançı kommunist ideologiyasını da, müstəqil Dövlətimizin rəsmi ideologiyası kimi bəyan elədiyi Azərbaycançılığı da Ulu öndər eyni şiddətlə milli mənafelərə kökləyə, səfərbər edə bilmişdir. Ümummilli liderin sovet dönəmində ədəbiyyat təliminin, ədəbiyyat vasitəsilə xalqa, millətə, cəmiyyətə təsir mexanizminin rəsmən bir çox forma və üsulları olmuşdur ki, bu kompleks tədbirlər sovet rejimində xalqı özgələşdirməkdən xilas etmiş, milli özünüdərk proseslərini gücləndirmiş, amorf “sovet xalqı” anlayışının ziddinə milli kimlik məsələlərini aktuallaşdırmışdır. Ulu öndər Heydər Əliyevin ədəbi mühitlə əlaqələrinin ən fəal və parlaq dövrü müstəqillik illəri olmuş, bu dövrdə Ulu öndərin qəlbi, fikri, düşüncəsi birbaşa xalqla, milli toplumla, ziyalılarla, cəmiyyətin düşünən kəsimi ilə birgə döyünərək, ideyaları bilavasitə yaradıcı və qurucu əməllərində gerçəkləşmişdir. Ulu öndərin diqqət yetirdiyi məsələlərdən biri də müstəqillik dövrü ədəbiyyatının səciyyəsi, ədəbiyyatın qarşısında duran problemlər, ədəbiyyat – xalq, ədəbiyyat – cəmiyyət, ədəbiyyat – dövlət münasibətləri olmuşdur. XXI əsrdə çağdaş Azərbaycanın lideri, Prezident İlham Əliyevin müdrik siyasəti ilə Azərbaycan dövləti dünya səhnəsində gün-gündən parlayıb uğurlar qazandıqca, müstəqillik ədəbiyyatının Heydər Əliyev modeli də inamla gerçəkləşməkdə, yerini almaqdadır.
**Açar sözlər:** Heydər Əliyevin ədəbiyyat təlimi, Azərbaycançılıq konsepsiyası, ədəbiyyat sevgisi, dissident ruhlu ədəbiyyat, yazıçılar qurultayı, müstəqillik ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 30.11.2023; qəbul edilib – 14.12.2023

# HEYDAR ALIYEV'S TRAINING OF LITERATURE AND MODERN ERA

**Tehran Alishanoglu**
Correspondent Member of ANAS
Institute of Literature named after Nizami Ganjavi ANAS. Azerbaijan.
E-mail: tehran2006@yandex.ru

**Abstract.** In the article is interpreted the principles that were the basis of Great Leader Heydar Aliyev's attitude towards literature and art and the requests and commentaries of literature training to which he paid special attention. Heydar Aliyev's commitment to literature is based not only on his duty and mission as the president and leader of the country, but also on his innate great love for literature and art. Literature training of Great Leader as a whole is based on the concept of Azerbaijanism founded and implemented by him in the first period when he came to power. During two different stages of his reign, although this training occurs in different statuses, it is essentially the same and serves the same purpose and national progress. Once upon a time Great Leader managed to base the communist ideology which was alien to us and Azerbaijanism ideology that he proclaimed as the official ideology of our independent state on national interests in the same strongly. During the Soviet period, there were many forms and methods of literature training of National Leader and his mechanism of influence on people, nation, society through literature; and these complex measures saved the people from alienation in the Soviet regime, strengthened the processes of national self-awareness and against the amorphous concept of "Soviet people", he made issues of national identity relevant. The most active and brilliant period of Great Leader Heydar Aliyev's relations with the literary environment was the years of independence. During this period the heart and mind of Great Leader beat together with the people, the national society, the intellectuals, and the thinking part of the society and his ideas were realized directly in his creative and constructive activity. One of the issues Great Leader paid attention to was the characteristics of independence period literature, problems facing literature and the relations of literature – people, literature – society and literature – state. In the XXI century, the Azerbaijani state achieves success on the world stage every day with the wise policy of the leader of contemporary Azerbaijan, President Ilham Aliyev; and Heydar Aliyev's model of independence literature is confidently realized and is taking its place.

**Keywords:** Heydar Aliyev's training of literature, the concept of Azerbaijanism, love of literature, literature with a dissident spirit, the congress of writers, independent literature

**Article history:** received – 30.11.2023; accepted − 14.12.2023

## Giriş / *Introduction*

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində, ictimai-siyasi fəaliyyətində elmə, mədəniyyətə, ədəbiyyat və sənətə daim önəm vermiş, yaradıcılıq sahələrinə həssas yanaşmış, ondan bəhrələnmiş, qorunub-saxlanması və inkişafı qayğısına qalmışdır. Azərbaycan yazıçılarının 1997-ci il X qurultayında Ulu öndər deyirdi: "Ancaq, eyni zamanda, 1969-cu ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə yerinə yetirməyə çalışaraq, həmişə hesab etmişəm, bu gün də hesab edirəm ki, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək, qayğı göstərmək lazımdır, ədəbiyyatdan, mədəniyyətdən həyatın başqa sahələrində işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün istifadə etmək lazımdır..." [1, s.41]

Bununla birgə, Ulu öndər Heydər Əliyevin ədəbiyyata bağlılığının, bütövlükdə ədəbiyyat

təliminin zəminində yalnız ölkə başçısı, rəhbər olmaq görəvi, missiyası deyil, həm də fitrətən böyük ədəbiyyat və sənət sevgisi dayanır. Həm də bu, sadəcə ədəbiyyata maraqdan doğan üstün keyfiyyət deyil (bu öz yerində, bioqrafları Heydər Əliyevin ədəbiyyat sevgisinin miqyası və faktlarını təfərrüatlı araşdırmışlar [7], ümumən xalqına, millətinə, vətəninə, onun mənəvi-mədəni sərvətlərinə köklü sahiblikdən doğan, yalnız dahilərə xas milli və bəşəri sevgidir. Heydər Əliyev deyir: "Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar. Onlardan sonra gələn nəsillər də bu ənənəni, xüsusiyyəti davam etdirmişlər. Ona görə də tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan, orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən...." [1, s.412-413]

Heydər Əliyev bir yandan xalqının bir parçası olaraq, əsl övlad sevgisi ilə əsrlər boyu dahilərin yaratdığı irsə, mənəvi sərvətə yiyə durur, qədir-qiymət qoyur. Sitat: "Xalqımız şeiri, ədəbiyyatı sevən xalqdır. Eyni zamanda şeirin, ədəbiyyatın hər bir insanın həyatında və xalqımızın cəmiyyətimizin, millətimizin həyatında daim böyük rolu olmuşdur. Məhz buna görədir ki, Azərbaycanda şairlər, yazıçılar, mədəniyyət, incəsənət xadimləri həmişə hörmətli olublar, bu gün də biz onların hörmətini daim saxlayırıq və yüksəltməyə çalışırıq…" [1, s.456]

Digər tərəfdən, Ümummilli lider özü də Nizamidən, Xaqanidən, Nəsimidən, Füzulidən və onlarla digər sələflərindən əxz etdiyi, öyrəndiyi dərsləri XX əsrdə davam etdirir, dahilərin yolunu gedir.

## Əsas hissə / *Main Part*

Heydər Əliyevin ədəbiyyat təlimi, bütövlükdə, əsasını hələ hakimiyyətinin birinci dövründə qoyduğu və gerçəkləşdirdiyi çağdaş Azərbaycançılıq konsepsiyasına söykənir. Akademik İsa Həbibbəyli yazır: "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Bu möhtəşəm əsərin möhkəm əsaslarını o, hələ keçmiş sovet hakimiyyəti illərində formalaşdırmışdı. Zəngin dövlətçilik təcrübəsi və geniş milli dünyagörüşə malik dövlət xadimi olması, cəsarətli ideyaları, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörənliyi hələ Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövründə Heydər Əliyevin siyasi liderlik istedadını Azərbaycan cəmiyyətinə və dünyaya təqdim etmişdir" [8, s.13].

Heydər Əliyevin ədəbiyyat təlimi hakimiyyətdə olduğu iki fərqli mərhələdə fərqli statuslarda dövriyyəyə gəlsə də, mahiyyət etibarilə eynidir, eyni amala, milli tərəqqiyə xidmət edir. O da heyrətamizdir ki, bir zamanlar bizə yabançı kommunist ideologiyasını da, Müstəqil Dövlətimizin rəsmi ideologiyası kimi bəyan elədiyi Azərbaycançılığı da Ulu öndər eyni şiddətlə milli mənafelərə kökləyə, səfərbər edə bilmişdir.

Birinci mərhələdə Heydər Əliyev daha çox siyasi xadim olaraq quruculuq lideri, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi olaraq çıxış edir. Və qarşılıq olaraq, bu dövrdə Ümummilli liderin ədəbiyyatdan istəyi budur ki, ədəbiyyat dağıdıcılığa yox, quruculuğa xidmət eləsin. Bu, hər şeydən öncə, onun ideoloji missiyasıdır; xalqın milli varlığının, tarixi yaddaşının, mənəvi dəyərlərinin, dilinin, tarixinin, mədəniyyətinin, adət-ənənələrinin yaşadılması; müasir dövrə, insanlara, cəmiyyətə ötürülməsi, çağdaş şüurun, müasir dünyagörüş və zövqün formalaşdırılması yolunda vəzifə borcudur. Heydər Əliyev Azərbaycan xalqını dünya millətləri ailəsində, qabaqcıl mövqelərdə görmək istəyirdi, elm, sənət, o cümlədən ədəbiyyatdan da bu istiqamətdə səylər, əsərlər, nəticələr gözləyirdi.

Ümummilli liderin sovet dönəmində ədəbiyyat təliminin, ədəbiyyat vasitəsilə xalqa, millətə, cəmiyyətə təsir mexanizminin rəsmən bir sıra forma və üsulları olmuş, bəzilərini də Heydər Əliyev şəxsən özü yaratmışdır. Belə ki:

– Sovet dönəmində ədəbi-mədəni mühiti təşəkkülləndirən formalardan biri kimi respublikalarda təntənəli şəkildə keçirilən **"mədəniyyət**

**və incəsənət ongünlükləri"ni, "ədəbiyyat günləri"ni, ümumittifaq və beynəlxalq tədbirləri** göstərmək olar. Heydər Əliyev bu tədbirlərə heç bir respublikada olmadığı qədər miqyas vermiş, Azərbaycan mədəniyyəti, incəsənəti və ədəbiyyatının, bütövlükdə azərbaycançılığın geniş təbliğatına çevirə bilmişdi (1972-ci ilin oktyabrında Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günləri, 1975-ci ilin oktyabrında Azərbaycanda Sovet ədəbiyyatı günləri, 1979-cu ilin aprelində "Fəal həyat mövqeyinin formalaşması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" mövzusunda Ümumittifaq elmi-praktik konfrans, 1979-cu ilin oktyabrında Azərbaycanda Ukrayna ədəbiyyatı və incəsənəti günləri, 1980-ci ilin 27-31 oktyabrında keçirilən "Xalqların dostluğu – ədəbiyyatların dostluğudur" Yazıçıların Ümumittifaq yaradıcılıq konfransı və s.)

– Ədəbiyyatı təbliğ üsullarından digəri **klassik irsin tanıdılması, kütləviləşdirilməsi, klassiklərin yubileylərinin keçirilməsidir.** Sovetlər dönəmində yubileylər sırası Ümummilli liderin məqsədyönlü və israrlı fəaliyyəti sayəsində qeyri-adi miqyas almış, Azərbaycan klassiklərinin Bakıdan başlanan yubiley təntənələri Kremlin Sütunlu salonuna və YUNESKO iqamətgahlarına qədər addımlamışdır. Heydər Əliyevin klassik irsə münasibəti barəsində çox yazılmış və ayrıca tədqiqatlar vardır [10]. Möhtəşəm nəticələri olan bir neçəsini – İ.Nəsiminin 600 illik, Nizami Gəncəvinin 840, Aşıq Ələsgərin 150, N.Nərimanovun 100 illik yubileylərini yada salmaq kifayətdir.

Tarixi yaddaşa qayıtmağın vasitələrindən biri də **yubiley günlərində klassiklərə abidələr qoyulması, heykəllərinin ucaldılması** (Nəriman Nərimanova, M.P.Vaqifə, Cəfər Cabbarlıya, Cəlil Məmmədquluzadəyə heykəllərin qoyulması, Hüseyn Cavidin məzarı üzərində 1996-cı ildə məqbərənin yüksəldilməsi ilə apogeyə çatmışdır), yaxud Ulu öndərin məxsusi önəm verdiyi memorial komplekslər, **ev-muzeylərin yaradılması hərəkatıdır** (Üzeyir Hacıbəylinin, S.Vurğunun, C.Cabbarlının, Bülbülün, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin ev-muzeylərinin yaradılması Heydər Əliyevin bu hərəkata necə önəm verdiyini təsbit edir).

***Bütün bu kompleks tədbirlər sovet rejimində xalqı özgələşdirməkdən xilas edir, milli özünüdərk proseslərini gücləndirir, amorf "sovet xalqı" anlayışına rəğmən, milli kimlik məsələlərini aktuallaşdırırdı. Qətiyyətlə demək olar ki, o illərdə Heydər Əliyevin yeritdiyi milliləşmə siyasəti olmasaydı, bugünkü milli cəmiyyətin formalaşması da, müstəqilliyimizə gedən yol da çox-çox uzaq ola bilərdi.***

Onu da vurğulamaq gərəkdir ki, Ümummilli lider dahilərin yubileylər paradına yalnız dövlət və ümumittifaq miqyasında maraqları cəlb etməklə qalmır, eyni zamanda ədəbiyyatın qarşısında buradan irəli gələn konkret vəzifələr də qoyurdu. Azərbaycan yazıçılarının 1981-ci il 12 iyun tarixli VII qurultayında Ulu öndər demişdi: "Açıq demək lazımdır: Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir... Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir..." [1, s.139-140]

Bu gün artıq qəti şəkildə aydındır ki, milli tarix və ədəbiyyatımızın Dədə Qorqud, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Babək, Əcəmi Naxçıvani, Cəmşid Naxçıvanski, Mehdi Hüseynzadə, Həzi Aslanov və bir çox digər tarixi simalarının müasir Azərbaycan cəmiyyətinə geniş və kütləvi surətdə tanıdılmasında, təbliğində, sevilməsində Heydər Əliyevin hələ respublikaya rəhbərlik etdiyi birinci dövrdə atdığı addımların, qəbul etdiyi dövləti qərarların, verdiyi rəsmi sərəncamların müstəsna və misilsiz rolu olmuşdur.

Anarın "Dədə Qorqud" kino-dastanı və əsasında çəkilmiş film, İsa Hüseynovun "Məhşər" romanı və əsasında ərsəyə gəlmiş "Nəsimi" filmi, Ənvər Məmmədxanlının "Babək" romanı və əsasında eyniadlı film, Eldar Quliyevin çəkdiyi "Nizami" filmi, Qabilin "Nəsimi" poeması, Fərman Kərimzadənin Ş.İ.Xətainin obrazını yaratdığı "Xudafərin körpüsü", "Çaldıran döyüşü"

dilogiyası, Mirzə İbrahimovun Nəriman Nərimanovun həyat yolundan söz açan "Pərvanə" romanı, İlyas Əfəndiyevin "Natəvan", "Şeyx Məhəmməd Xiyabani", Bəxtiyar Vahabzadənin Göytürk imperiyasından söz açan "Özümüzü kəsən qılınc", Nəriman Həsənzadənin "Atabəylər" pyesləri, Rəfael Hüseynovun "Cavidlər" və s. kimi onlarca bədii əsərlər məhz aktuallanmış zamanın mövzusu kimi, tarixi yaddaşın oyanması nəticəsində yaranmış, müasirlərimiz böyük tarixi şəxsiyyətlərin obrazları ilə canlı dialoqa girmək şansı qazanmışlar.

Burada **əlahiddə əhəmiyyəti yalnız bugünlərdə daha dərindən dərk olunan hadisələri də qabartmaq** gərəkdir: Azərbaycan xalq ədəbiyyatının klassiki Aşıq Ələsgərin 150 illiyinin 1972-ci ildə təntənəli surətdə, ümumxalq səviyyəsində, Bakıda və Moskvada qeyd olunması, şairin vətəni Göyçədə abidəsinin ucaldılması; yaxud 1982-ci il yanvarın 14-də Ulu öndərin Şuşada böyük təntənə ilə M.P.Vaqif məqbərəsini ucaltması, sonraya saxlamadan qarlı qış günündə açılışını etməsi, yayda Vaqif poeziya günlərinin keçirilməsi və bunun ənənəvi poeziya bayramlarına çevrilməsi cidd-cəhdlə Qarabağı azərbaycansızlaşdırmağa çalışan qurnaz erməni siyasətinə qarşı düşünülmüş bir addım, Heydər Əliyevin rəhbərliyi dövründə gerçəkləşdirdiyi çoxsaylı tarixi-mədəni tədbirlər sırasından idi.

Üstündən 39 il ötəndən sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın məhz 2021-ci il 14 yanvar günü Şuşaya səfəri, işğal zamanı vəhşi erməni vandalizminə məruz qalmış abidənin tez bir zamanda, olduğu kimi bərpası, həmin ilin iyul-avqust günlərində məqbərənin açılışı, Vaqif poeziya günlərinin yenidən dirçəldilməsi və hər il keçirilməsi böyük şairin və Ulu öndərin ruhuna ehtiramın ifadəsi olmaqla yanaşı, Heydər Əliyev məfkurəsinin əbədi yaşarılığı, ölməzliyinin rəhni və sübutudur.

Sovet dönəmində ədəbiyyatı və ədəbi mühiti təmsil edən, nəzarətdə saxlayan və yönəldən başlıca instansiya Yazıçılar İttifaqı sayılırdı. Özünün də vurğuladığı kimi, Heydər Əliyev Azərbaycan yazıçılarının 1969-1982-ci illərə təsadüf edən bütün – 1971, 1976, 1981-ci il V, VI, VII qurultaylarında iştirak etmiş, həmçinin çıxışlar etmişdir.

Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə keçirilən hər bir Yazıçılar Qurultayı ədəbi mühitdə dəyişikliklər dövrü, ədəbi vexa olaraq xatırlanır. Hər bir qurultay böyük səs-sədaya səbəb olan müəyyən bir vacib, ümummilli problemin qabarması ilə yadda qalmışdır. Məsələn, Azərbaycan yazıçılarının 12 iyun 1981-ci il tarixli VII qurultayı xüsusən tarixi əhəmiyyətli qurultay kimi, "sözün yaxşı, sağlam mənasında millətçilik əhvali-ruhiyyəsi, "İran Azərbaycanı" ifadəsinin "Cənubi Azərbaycan" ifadəsi ilə əvəz olunmasının rəsmiləşdirilməsi" [6, s.233] ilə yadda qalmışdır. Qurultaydakı çıxışında Heydər Əliyev deyir: "Bir məsələyə də toxunmaq istəyirəm. Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq İttifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidirlər..." [1, s.146]

Nəticələr özünü çox gözlətmir. Qurultaydan dərhal sonra Yazıçılar İttifaqında Cənubi Azərbaycan üzrə katiblik yaradılır, Balaş Azəroğlu bu sahəyə rəhbərlik etmək üçün Yazıçılar İttifaqının katibi seçilir. Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademik Mirzə İbrahimovun rəhbərliyi ilə şöbə açılır, Cənubi Azərbaycan ədəbiyyatının araşdırma mərkəzinin təməli qoyulur..." [3, s.45]

O zamankı sovet rəhbərliyində yer almış hakim vərdişlərə rəğmən, Heydər Əliyev istər xalqla ünsiyyətində, istərsə də yazıçılar qurultayındakı çıxışlarında rus dilində deyil, doğma ana dilində nitq söyləyir. Azərbaycan Yazıçılarının X Qurultayında, müstəqil Dövlət dilinin inkişafı qayğılarından danışarkən, Ulu öndər sovet dönəminə də ekskurs edib, o illərdə atılan addımların önəmini yada salır: "Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı, burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışma-

mışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdır. Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi...” [1, s.443] Bu sıradan Ümummilli liderin daha bir tarixi hünəri – sovet dönəmində uzun sürən mübarizələrdən sonra Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyasında Azərbaycan dilini Dövlət dili kimi qəbul etdirməsi olur.

Azərbaycan yazıçılarının 1976-cı il VI qurultayında daha bir cəsarətli ideya – “böyük Füzulinin nəşinin uzaq Kərbəladan Azərbaycana gətirilib tarixi vətən torpağına tapşırılması təklifi” [2, s.235] söhbət predmeti olur. İdeyanın bilavasitə gerçəkləşməsi mümkünsüz və sonrakı gedişatın da göstərdiyi kimi, lüzumsuz olsa da, Heydər Əliyevin 1977-1981-ci illərdə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin qəbrinin qorunması və məqbərəsinin tikilməsi ilə bağlı gördüyü çöxyönlü işlər [9, s.92-95] siyasi liderin ədəbiyyata və milli simvollara nə qədər həssas yanaşmasının bariz nümunəsidir. Vətən torpağından ayrı düşmüş qərib məzarların Azərbaycana köçürülməsi ideyasını isə Heydər Əliyev 1982-ci ildə Hüseyn Cavidin nəşinin uzaq və soyuq Sibir torpağından gətirilib doğma Naxçıvan torpağında dəfn olunması və müstəqillik illərində üzərində məqbərə ucaldılması kimi möhtəşəm addımları ilə reallaşdırır.

Heydər Əliyevin ədəbiyyat təlimində mühüm yerlərdən birini yazıçıların passiv deyil, “fəal həyat mövqeyi”ndən çıxış etməsi, barışmaz, mübariz qələm işlətməsi məsələsidir. Yazıçıların 1997-ci il X Qurultayında Ulu öndər sovet dönəmində özünün başlatdığı və ədəbiyyatda əks-səda verən proseslər barəsində deyirdi: “Amma siz də bilirsiniz ki, 1969-cu ildə mən Azərbaycana rəhbər seçilən gündən Azərbaycanın həyatında olan eybəcərlikləri, mənfi cəhətləri daim tənqid etmişəm və onlarla mübarizə aparmışam. Ona görə də gəlib mənə deyəndə ki, Anar “Şəhərin yay günləri” pyesi yazıbdır, orada bizim quruluşun əleyhinə gedir, filan edir, dedim yaxşı, gedib baxaram. Gəldim, baxdım, çox da təriflədim, mükafat da verdim...” [5, s.437-438]

Belə ki, Heydər Əliyevin ədəbiyyat təlimi yalnız milli iftixar, tərənnüm, “Cənnət görmək istəyən Azərbaycana gəlsin!” soraqlı vəsf ədəbiyyatının tərəfdarı deyildi; Ümummilli lider milli varlığın mənafeyinə xidmət edən hər bir əsərin, o cümlədən tənqidi ruhlu ədəbiyyatın arxasında durmağa hazır idi. 1981-ci il Yazıçıların VII qurultayında Anarla pərdəarxası görüşündə demişdir: “Amma, hər halda, bir partiya işçisi kimi, bir ata kimi sizə tövsiyə edirəm ki, irimiqyaslı əsər yaradasınız, bizim bugünkü həyatımızı əks etdirən bir əsər. Qoy orda neqativ hallara qarşı mübarizə də olsun, amma eyni zamanda bizim əxlaq prinsiplərimizi, ideyalarımızı aydın, fəal təsdiq də olsun...” [5, s.62]

Bugün **qəti söyləmək olar, Heydər Əliyev epoxasında yaranan Azərbaycan ədəbiyyatı mahiyyət etibarilə dissident ruhlu ədəbiyyat** olmuşdur. Bu faktı həmin ədəbiyyatın hələ sovet dönəmində doğurduğu qeyri-adi reaksiyalar da təsdiq edir. Anar yazır: “Xatırlayıram ki, yalnız Moskvanın deyil, hətta Pribaltika kimi sərbəst, müstəqil fikrə alışmış regionların belə ziyalıları bizim bəzi kitabları oxuyanda, tamaşa və filmlərimizi görəndə onların yasaqlanmamasına təəccüb edirdilər” [4]; Elçin bir müsahibəsində xatırlayır: “Rusiyanın məşhur ədəbi tənqidçisi Lev Anninski mənə deyirdi: Siz respublikada nə oyunlar çıxarırsınız? Siz jurnallarınızda “kramolnı” (qanunazidd) əsərləri çap etməyə yol verirsiniz!” [2, s.214]

Ulu öndər Heydər Əliyev özü görüşlərdən birində ədəbiyyatımızda dissidentizm məsələsinə belə aydınlıq gətirir: “Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycana rəhbərlik etdiyim zamandan danışırdıq. Mənə sual verdi ki, sizdə, Azərbaycanda o vaxt dissident var idi, yoxsa yox idi? Dedim ki, yox idi. Dedi, nə üçün? Dedim ki, biz dissident axtarmırdıq. Təbiidir ki, əgər axtarsaydıq, çox dissident çıxarmaq olardı. Məsələn, əgər o illər, 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki,

Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq. Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsl dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar. Bəlkə də onlar indi heyifsilənirlər ki, o vaxt Əliyev qoysaydı və biz dissident olsaydıq, indi bəlkə hörmətimiz daha da artıq olardı. Yaxud götürək Anarı. O da dissident idi...” [5, s.48-49]

Belə ki, Heydər Əliyevlə Azərbaycan yazıçılarını zamanından və üsullarından asılı olmayaraq, millət uğrunda savaş ideyası birləşdirirdi. O da təsadüfi deyil ki, 1995-ci ildə Müstəqil Azərbaycanda Ulu öndər Heydər Əliyevin sərəncamı ilə “İstiqlal” ordeni təsis olunanda, bu ordenə ilk olaraq üç şair – Xəlil Rza Ulutürk, Məmməd Araz, Bəxtiyar Vahabzadə layiq görülmüşdür.

Ulu öndər Heydər Əliyevin ədəbi mühitlə əlaqələrinin ən fəal və parlaq dövrü müstəqillik illəridir. Bu dövrdə Ulu öndərin qəlbi, fikri, düşüncəsi birbaşa xalqla, milli toplumla, ziyalılarla, cəmiyyətin düşünən kəsimi ilə birgə döyünür, ideyaları bilavasitə yaradıcı və qurucu əməllərində gerçəkləşir, intişar tapır.

Ulu öndərin tam himayəsi və qayğısı altında 30 oktyabr 1997-ci ildə keçirilən Azərbaycan yazıçılarının X qurultayında Heydər Əliyev demişdir: “İndi isə bizim bu qurultayımız tamam başqa bir şəraitdə keçir. Keçmiş zamanlarda nə qədər böyük nailiyyətlər əldə etmişiksə də, mən hesab edirəm ki, bu qurultay indiyə qədər olan bütün qurultaylardan, yazıçıların toplantılarından, konqreslərindən – hamısından üstündür. Çünki müstəqil Azərbaycan Respublikasının sərbəst yazıçıları müstəqil dövlətimizdə özlərinin ilk qurultayına toplaşmışlar. Bu, çox sevindirici haldır...” [1, s.418]

Qurultaydakı həmin çıxışında Heydər Əliyev ənənəsini davam etdirərək, ölkənin mövcud ictimai-siyasi durumu, vacib problemlər və qarşıda duran vəzifələr, o cümlədən Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tarixi və bu günü, yaxın sovet dövrünə münasibət, müstəqilliyin gətirdiyi üstünlüklərlə yanaşı, çətinlikləri, yazıçı və ziyalıların məsuliyyəti barəsində fikir və mülahizələrini auditoriya ilə bölüşməklə, həm də hər bir məqamda fərqli yanaşmaları, yeni situasiyanın diktəsini, məhz sərbəstlik və müstəqillik faktorunu qurultay iştirakçılarına çatdırmağa, tövsiyə etməyə, aşılamağa çalışmışdır. “Bu, müstəqilliyimizin bizə verdiyi töhfələrdir ki, biz indi artıq heç kəsdən, heç bir mərkəzdən, ideologiyadan asılı olmayaraq, özümüz sərbəst olaraq həyatımızın hər sahəsini araşdırırıq, o cümlədən öz ədəbiyyatımızı, mədəniyyətimizi istədiyimiz kimi müzakirə edirik və istədiyimiz istiqamətdə aparırıq. Bu azadlıq, sərbəstlik, müstəqillik əvəzsiz bir nemətdir. Ona görə də bu qurultay başqa qurultayların davamı olmaqla yanaşı, onuncu qurultaydır və əvvəlki doqquz qurultayın hamısından üstündür...” [1, s.418]

Heydər Əliyev bir rəhbər, dövlət başçısı olaraq, ilk növbədə, ədəbi-mədəni mühitin onillərlə formalaşmış ənənəvi strukturunun bərpasına yardım etmiş; Azərbaycan Yazıçılar Birliyinin qorunub-saxlanmasına görə, başda birliyin sədri Anar olmaqla, yazıçılara minnətdarlığını bildirmişdir. Qurumun fəaliyyətini dövlət hesabına təmin etməklə, müasir ədəbi prosesin yenidən təşkilinə şərait yaratmışdır.

Ulu öndər uzaqgörən, müdrik siyasəti ilə müstəqillik illərində Azərbaycan ədəbiyyatının tarixi ənənələrini, Ümumşərq, Ümumtürk dəyərlərini aktuallaşdırdı, müasir dünyaya çıxardı. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin 1994-1996-cı illərdə Bakıda, Türkiyədə, İraqda, Moskvada, Parisdə, “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin 1997-2000-ci illərdə Bakıda, Türkiyədə, Drezdendə, Parisdə YUNESKO səviyyəsində geniş qeyd olunması bundan xəbər verirdi. Məhz Ulu öndərin müdrik siyasəti müstəqillik illəri Azərbaycan ədəbiyyatı və mədəniyyətinə tarixi kontekstlərini bərpa etməyə şans verdi. Türk xalqlarını bir araya gətirən Türksoy yarandı. Uluslararası konfranslar keçirildi. 1992-ci ildən başlayaraq iki dəfə Türkiyədə baş tutmuş Türk dünyası yazıçılarının 6 noyabr 1996-cı il Bakıda keçirilən III qurultayının açılışında Ulu öndər uzaqgörənliklə deyirdi: “Bu dəyərli təşəbbüs bu gün davam edir. Əmin olduğumu bildirmək istəyirəm ki, türk dünyasının yazıçıları və bizim ölkələrimiz, xalqlarımız bu işi davam et-

dirəcəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha da geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar" [1, s.337-338].

Bir zamanlar iki Azərbaycan – sovet Azərbaycanı və İran Azərbaycanı arasında ideoloji baryerlər sayəsində ayrılıq rəmzinin təcəssümünə çevrilən böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın 90 illik yubileyinin o taylı-bu taylı xalqımız tərəfindən birgə, bayram təntənəsilə nümayiş olunması yeni tarixi reallıqların ifadəsi idi. Ulu öndər deyirdi: "Qardaş Azərbaycan və İran xalqları arasında hərtərəfli münasibətlərin, o cümlədən elmi-mədəni əlaqələrin inkişaf etməsində Şəhriyar simasının rolu və xidməti misilsizdir" [1, s.463].

Ulu öndər Heydər Əliyev yazıçıların X qurultayında Azərbaycan ədəbiyyatı və mədəniyyətinin Şərq və Qərb şəcərəsi barəsində söylədiyi postulatlarını müstəqil Azərbaycanda bilavasitə həyata keçirməyin, gerçəkləşdirməyin əsasını qoydu. Heç təsadüfi deyil ki, həmin ənənə zəminində bu gün müstəqil Azərbaycan dünya sivilizasiyasına inteqrasiya yollarında artıq qlobal mədəni tədbirlərin yer aldığı daimi ünvanlardan birinə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin səyi və sərəncamları ilə bir-birinin ardınca keçirilən və dünyanın ən məşhur, nüfuzlu, intellektual elitasını bir araya gətirmək gücündə olan Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumları, Nizami Gəncəvi Forumları, Beynəlxalq Nəsimi festivalı və s. kimi geniş marağa səbəb olan tədbirlərə ev sahiblik etməsi Azərbaycanın sorağını bütün dünyaya yaymışdır. Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban xanım Əliyevanın, eyni zamanda YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri kimi geniş fəaliyyəti həm də özlüyündə simvolik məna kəsb edərək, Qərb və Şərqin Azərbaycanda ünvanlanan vəhdətini nişan verir.

"Biz gələcəkdə də şairlərimizin, yazıçılarımızın, mütəfəkkirlərimizin yubileylərini keçirəcəyik və hər bir belə yubiley xalqımızın bayramı olacaqdır" [1, s.422], – deyən Ulu öndər yanılmırdı. Həmin ənənələr bu gün də yaşayır, günün inkişaf tempinə, xalqın mənəvi tələblərinə müvafiq olaraq intişar tapır. Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə klassiklərin yubileylərinin geniş qeyd olunması, bütövlükdə, 2019-cu ilin İmadəddin Nəsimi ili, 2021-ci ilin Nizami Gəncəvi ili kimi simvolizə olunması Ulu öndərin başlatdığı, Azərbaycan dəyərlərinin dünyaya çıxması, inteqrə olunması yolunda nəhəng addımları təmsil edir, göstərir.

Azərbaycan Yazıçılarının X Qurultayında Ulu öndərin diqqət yetirdiyi məsələlərdən biri də müstəqillik dövrü ədəbiyyatının səciyyəsi, ədəbiyyatın qarşısında duran problemlər, ədəbiyyat – xalq, ədəbiyyat – cəmiyyət, ədəbiyyat – dövlət münasibətləri olmuşdur. "Mədəniyyət, ədəbiyyat gərək daim dövlətlə bir yerdə olsun..." – söyləyən Ulu öndər müstəqillik illərində ədəbiyyatın cəmiyyətlə, mühitlə birgə azadlığa qovuşması, demokratiya, yazıçıların tam sərbəstliyi, plüralistik mövqeyi haqqında fikirlərini aşılamaqla yanaşı, ədəbiyyatın xalq, vətən, cəmiyyət qarşısında missiyasını da unutmamağa çağırır: "Ancaq hesab edirəm, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz. Bu məsələ də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, Azərbaycan vətəndaşlarının hərbi vətənpərvərlik, ümumiyyətlə, vətənpərvərlik ruhunda tərbiyələndirilməsi, Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir. Bu, çox vacibdir, çox lazımdır..." [1, s.435]

Azərbaycana, azərbaycançılıq əqidəsinə sədaqət Ulu öndər tərəfindən qurultay qarşısında əsas mənəvi tələb kimi irəli sürülür: "Gənclərimizin düzgün tərbiyə olunması və Azərbaycana, müstəqilliyimizə sədaqət, hesab edirəm ki, sizin yaradıcılığınızın əsas mövzusu olmalıdır. Bu mövzu heç vaxt köhnəlmir. Bu, elə bir mövzudur ki, heç vaxt tükənmir. Çünki biz nə qədər yaşayırıq, o qədər də gərək müstəqilliyimizi möhkəmləndirək..." [1, s.440]

**Nəticə / *Conclusion***

2020-ci ilin Vətən müharibəsi Ulu öndərin təlqin elədiyi fikirlərin tam həqiqət olduğunu təsdiqlədi. 44 günlük Vətən müharibəsinin ilk günündən son qələbə nidasınacan xalqımız, cəmiyyətimiz, insanlarımız kimi, Ədəbiyyatımız da döyüşən ordumuzun yanında oldu, informativ, emosional, ruh və mövqelər savaşında cəbhədən cəbhəyə qələbələrimizin və son böyük Zəfərimizin yanında oldu. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarında dəfələrlə vurğuladığı kimi, Vətən müharibəsində, Qarabağ torpaqlarının işğaldan azad olunmasında Qələbəni bizə qazandıran ordunun əsgərləri, məhz müstəqillik illərində doğulmuş, müstəqil cəmiyyətdə, o cümlədən müstəqillik ədəbiyyatı ilə böyümüş, dərs almış, tərbiyələnmiş gənc nəsillər oldu. Heydər Əliyevin tövsiyə və təlqin etdiyi ədəbiyyatla.

Ulu öndər Heydər Əliyev Azərbaycan Yazıçılarının X Qurultayında çıxışına yekun vurarkən, milli ədəbiyyatın sabahına alqış diləmişdir: "Ədəbiyyatımıza yeni uğurlar arzu edirəm. Heç şübhə etmirəm ki, Azərbaycan ədəbiyyatı XX əsri uğurla sona çatdıracaq və XXI əsrdə dünya, bəşər ədəbiyyatına gözəl nümunələr verəcəkdir" [1, s.446].

XXI əsrdə çağdaş Azərbaycanın lideri, Prezident İlham Əliyevin müdrik siyasəti ilə Azərbaycan dövləti dünya səhnəsində gün-gündən parlayıb uğurlar qazandıqca, müstəqillik ədəbiyyatının Heydər Əliyev modeli də inamla gerçəkləşməkdə, yerini almaqdadır.

**Ədəbiyyat / *References***

1. Əliyev, H. Ədəbiyyatın yüksək borcu və amalı. Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan, 1999.
2. Axundova, E. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə, II cild. – Bakı: Ozan, 2007.
3. Akimova, E. Poeziyada Heydər Əliyev idealı // Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. – Bakı: Elm və təhsil, 2018.
4. Anar. Şəxsiyyətin miqyası. "Ədəbiyyat qəzeti", 8 may 1998-ci il.
5. Anar. Unudulmaz görüşlər. – Bakı: Təhsil, 2009.
6. Elçin. Seçilmiş əsərləri. 10 cilddə, VI cild. – Bakı: Çinar-Çap, 2005.
7. Əlişanoğlu, T. Heydər Əliyevin ədəbiyyat sevgisi: təşəkkül və özünüifadə // T.Əlişanoğlu, Müxbir üzvün qeydləri. – Bakı: Elm və təhsil, 2022.
8. Həbibbəyli, İ. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr. – Naxçıvan: Əcəmi, 2013.
9. Qasımlı, M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006.
10. Nəbiyev, B., Qarayev, Y., Quliyev, V., Qasımlı, M. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. – Bakı: Elm, 1998, 178 səh.; Nəbiyev, B., Qasımlı, M., Kərimli, T., Quliyev, V., Cabbarlı, N., Şəmsizadə, N. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. – Bakı: Şərq-Qərb, 2009, 248 səh.

## ГЕЙДАР АЛИЕВ ОБ ИЗУЧЕНИИ ЛИТЕРАТУРЫ И СОВРЕМЕННОСТЬ

**Техран Алышаноглу**
Член-корреспондент НАНА
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: tehran2006@yandex.ru

**Резюме.** В статье комментируются принципы, строящиеся на отношении Великого лидера Гейдара Алиева к литературе и искусству, требования уделения особого внимания к изучению и познанию литературы. Увлечение Гейдара Алиева литературой представляет не только прозорливую миссию руководителя государства, но и врождённую большую любовь

к литературе и искусству. В целом основа учения литературы Гейдара Алиева, построенная и реализованная им ещё в первый период прихода к власти, опирается на современную концепцию азербайджанства. Так как это учение в течение двух разных этапов его управления республикой привилось в двух различных статусах, они тождественны по сути и служат новым идеям и прогрессу. Великий лидер с крайним упорством сумел обратить и бывшую лживую коммунистическую идеологию и мобилизовать на корнях национальных интересов в официальную идеологию азербайджанства нашего независимого государства. По общенациональному лидеру, в учении литературы имелось множество форм и средств официального механизма влияния, в советское время эти комплексные мероприятия спасли народ от отчуждённости, усилили процессы национального самопознания, актуализировали вопросы национальной идентификации в противовес аморфному понятию «советский народ». Самым активным и блистательным периодом связи великого лидера Гейдара Алиева с литературной средой были годы независимости, во время которых сердце, помыслы Гейдара Алиева всецело бились единым пульсом вровень с народом, национальными массами, образованными интеллектуалами, общественным мышлением, его идеи напрямую претворялись путём творческой и созидательной работы. Среди вопросов, привлекающих внимание великого лидера, были значение литературы в период независимости, проблемы, стоящие перед литературой, отношения литературы и народа, литературы и общества, литературы и государства. В XXI веке, когда благодаря мудрой политике современного лидера Азербайджана президента Ильхама Алиева Азербайджанское государство день ото дня достигает блестящих успехов на мировой арене, модель независимой литературы Гейдара Алиева уверенно реализуется и занимает собственное место.

**Ключевые слова:** литературное учение Гейдара Алиева, концепция азербайджанства, любовь к литературе, литература диссидентского духа, съезд писателей, литература независимости